# Yüklenip Ğam Üstime Yareb Nedendir Bilmirem

— *faramarz-abdollahpur* · 27 Nisan 2024



Yüklənip ğəm üstimə yarəb nədəndir bilmirəm
Esterahət eylirəm axşam səhər dincəlmirəm

Ğəmlə gücləşdim ğəm atdi bel buxun ağrır elə
Mənlə ğəm bir yerdə qalmaqlıxda heç düz gəlmirəm

Ğəm mənə söylər əzizim mən sənun yoldaşuvam
Neççə ellərdi sənilən mən varam sirdaşuvam

Söylədim mən bu nə yoldaşluqdı ey biməərifət
Artırırsan hər gün əfkarım sənilən gəlmirəm

Ğəm baxıp güldi mənə eyvay dedi əhvalivə
Olmasam gər mən sənilən nəqsdur əfâlivə

Söylədim bu nəqs hardandur əla ey pire ğəm
Hər nəqədri mənlə varsan şad olıp heç gülmirəm

Söylədi qorxma fəramərz yox sənə məndən zərər

İnekase feelo əfkarundı heç mən gəlmirəm